**AZƏRBAYCAN RESPUBLİKASI**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

№ 192 «08» sentyabr 2016 – cı il

**Binəqədi rayonunda müqəddəs "Qurban bayramı"nın qeyd edilməsi haqqında**

İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Artıq 1992-ci ildən etibarən Qurban bayramı Azərbaycanda da dövlət səviyyəsində bayram edilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Müqəddəs "Qurban bayramı"nın Binəqədi rayonunda təntənəli surətdə qeyd edilməsi məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamənin" 4.1.22-ci, 4.6.11 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Q Ə R A R A A L I R A M :**

1. Müqəddəs "Qurban bayramı"nın rayon ərazisində yüksək səviyyədə və mütəşəkkil formada qeyd edilməsinin təşkili məqsədilə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Komitənin sədri**

Vüsar İsmayılov - Binəqədi RİH başçısının müavini

-

**Komitənin üzvləri**

Elman Dadaşov - Binəqədi RİH başçısı Aparatının İctimai – siyasi və humanitar məsələlər şöbəsinin müdiri

| | | |
|---|---|---|
| Yəhya Əliyev | - | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| Elşad Rəhimov | - | Rayon təsərrüfatı şöbəsinin müdiri səlahiyyətlərini müvəqqəti icra edən, baş məsləhətçi |
| Namiq İsmayılov | - | Binəqədi Rayon Polis İdarəsinin rəisi |
| Qüdsi Bayramov | - | Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi |
| Azər Məmmədov | - | Rayon Mənzil-kommunal Təsərrüfatı Birliyinin rəisi |
| Fədai Hacıyev | - | Binəqədi rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru |

2. Bayram günlərində qurbanlıq üçün nəzərdə tutulan heyvanların müvəqqəti satış və kəsim yerlərinin dislokasiyası təsdiq olunsun (əlavə olunur).
3. Təşkilat komitəsinə tapşırılsın ki, bayram münasibətilə Binəqədi rayonunda yaşayan bir qrup şəhid, əlil, məcburi köçkün, aztəminatlı və digər kateqoriyadan olan ailələrə humanitar yardımın göstərilməsi işini təmin etsin.
4. Rayon Polis İdarəsinin rəisi Namiq İsmayılova tövsiyə edilsin ki, bayram günlərində təsdiq olunmuş dislokasiyadan kənarda satış və kəsim aparılmasının qarşısının alınmasını təmin etsin.
5. Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Fədai Hacıyevə tapşırılsın ki, qurbanlıq üçün nəzərdə tutulan heyvanların müvəqqəti satış və kəsim yerlərinin sanitariya normalarına uyğunluğunu və kəsimdən sonra dezinfeksiya tədbirlərinin aparılmasını nəzarətdə saxlasın.
6. Rayon Mənzil - Kommunal Təsərrüfatı Birliyinin rəisi Azər Məmmədova tapşırılsın ki, rayon ərazisində bayram günlərində gücləndirilmiş iş rejimində təmizlik işlərinin həyata keçirilməsini və məişət tullantılarının vaxtında daşınmasını təmin etsin.

7. Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanova tapşırılsın ki, Sərəncamın surətinin göndərilmə siyahısına uyğun olaraq çatdırılmasını təmin etsin.

8. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Vüsar İsmayılova həvalə olunsun.

**Xaləddin İsgəndərov**
**№ 189**

**ƏSLİ İLƏ DÜZDÜR:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** SƏNƏDLƏR ÜÇÜN **Elnur İmanov**